

Gülayə

"Bu dünyada gərək heç olmasa bir şirin, bir gizli bilgin olsun ki, həyat tam bir bozluq içində keçməsin!" - xalq yazıçısı Elçin doğru deyir... ancaq mənim üçün həyatın tam bir bozluq içində keçməməsi üçün o gizli sirrdən, gizli bilgidən də əvvəl bədii ədəbiyyat deyilən açıq-aşkar bir dünya da mövcuddur. Və o dünya bütün hallarda həyatımızın bozluqdan uzaq, heyranlıq, heyrət dolu yaşamına vəsilə olub. Tərəddüdsüz deyirəm ki, mənim üçün ədəbiyyata olan bu heyrət, heyranlıq camisinin özəl bir İlqar Fəhmi hücrəsi də var. Ən azından ona görə ki, İlqarın aşağıdakı misraları ömrün-günün müəyyən məqamlarında məni üstümə yeriyən bozluqlardan xilas edib.

*Nəfəs dəyir yavaşca,*
*Sönür şam.*
*Yuxum gəlir səninçün*
*bu axşam.*

Ən azından ona görə ki, İlqar Fəhmi fikri təzələməyin, ruhu yerindən oyatmağın dilini gözəl bilir. Öz yanından belə görməyib ötmüş kimi olanda da belə o, qədim lövhələrə yeni can verir. Məsələn, belə:

*Soyuğam, öpmə üzümdən,*
*dodağın xəstələnər,*
*Gəl dəyiş yorğanını torpaqla*
*mənimçün bu gecə.*

Şeirin, poeziyanın şirin dili İlqarın nəsr yaradıcılığına bu gözlənilməz, cazibədar təzələnmə müstəvisindən təcəlli edir. "Kölgədə əqrəb" kitabının ilk səhifələrindəncə baxıb görürük ki, bu, belədi. "Karmen"in təhkiyə cazibədarlığı buradan gəlir. O yerdə ki, baş verənlərin gözəlliyi bütün günahların üstünü örtür və həyatın gözlənilməzliklərlə dolu teatr səhnəsi sənin özünü özünə göstərməyə başlayır, bax, o yerdən İlqar Fəhmi yaradıcılığının bütün bozluqlara savaş açan cazibəsi başlayır.

Onun yazdıqlarının alt yapısındakı ironiya əslində ciddi bir ədəbiyyat adamının xalq həyatının güzgüsü olan söz sənətinin aşınmaları önündə keçirdiyi təəssüf, qəzəb hissinin ifadəsi kimi yadda qalır. "Köhnə romantikaya elegiya"sı məhz bu yöndən maraqla oxunur:

***İndi şerin ləzzəti yox, dadı yox,***
***Daha şan-şöhrəti yoxdur, adı yox.***
***İndi şerin azacıq istisi var ki,***
***Qoruyub saxlamasan daha heç.***

***"Yaxşı" eşqin sonu yox, əvvəli yox,***
***Hər yana şölə saçan məşəli yox.***
***Yaxşı eşqin sarı bir məşəli var ki,***
***Ona da ağlamasan heç.***

***"Köhnə yar"ın daha o meydanı yox,***
***Cərgə-cərgə düzülən qurbanı yox.***
***Köhnə yarın dəli bir aşiqi var ki,***
***Sinəsini dağlamasan heç.***

İlqarın "Fələyin köhnə, sınıq çarxı qalıb ki, arabir yağlamasan heç", "Fəhminin yerdə quru cismidi ki, üstünü torpaqlamasan, heç" deyimləri də eyni ironiyanın, aşılanan dünyanın ilkin, bakirə çağına olan sonsuz dartınışın (eyni zamanda da çağırışın) ifadəsi kimi fikri, düşüncəni sarmaqdadı.

Yapışdıranı min ildi tapılmayan çat vermiş şəkillərin könül üşündən xatirə qoxusu İlqarın poetik yaddaşını qanadıb keçir. Qapını döyənin qonaq yox, ölüm olduğunu biləndə belə onu da qonaq kimi qarşılamaq dünyagörmüşlüyü məhz İlqar Fəhmidən gəlir. Ölümün qara bir qəpikdən ucuz olduğu həyatda bütün oynayanların uduzması gerçəkliyini İlqar Fəhminin qələmi xüsusi bir ahıllıqla (yəni müdrikliklə) yazıb önümüzə qoyur.

"O ömürdən, bu ömürdən tökülən" könül dostuyla bağlı saatlar indi vaxtın hansı məqamına işləyir görəsən? - sualına İlqar Fəhminin şeirlərində çox həssas, düşündürücü bir cavab var. İlqarın şeir dünyasında şux bir zarafat, məzə hissinin sərgilənməsi tez-tez özünü göstərir. Ancaq heç bir halda bu şux, yandırıb-yaxan zarafat qeyri-ciddi effekt doğurmur. Onun ironiyası daha çox düşündürücü, yada salma, xatırlatma missiyasına hesablanmış olur. Bəlkə də şeirlərində özünü bol-bol ifadə edən bu cəhətdən irəli gəlir ki, İlqar Fəhminin nəsr dili adamı yormur. Hətta üzbəüz otel pəncərəsindən onu izləyən gözəl xanımın nələr düşündüyünü, hansı iztirablara məruz qaldığını xəyalən, fikrən duyub, götür-qoy edən yazıçını qatil olmağa sövq edən müəmmalı məsələlərdən yazanda da belə onun yazı üslubu öz ironik vərdişinə sadiq qalır. Bu ironiya onun diqqətə çatdırmaq istədiyi mətləblərin üzərinə çəkilmiş niqab, örtük effekti doğurur. Ona görə də oxucu İlqar Fəhminin yazdıqlarının gizlinlərinə vaqif olmaq üçün bu örtüyü götürməyə hər dəfə yeni bir maraqla dartınır. Bu maraq oxucu ilə yazıçı arasında etibarlı bir əlaqə yaradır. Bütün hallarda İlqarın yazdıqları həyatı müşahidələrin sintezindən, ağlın və hissin harmoniyasından qaynaqlanır. Onun yazdıqlarını oxuduqca inanırsan ki, bu başlanğıcın aqibəti, sonu məhz bu cür də bitməliydi:

***Bezib axır susacaqsan, birdən***
***Yenə də yastığa çırpıb üzünü.***
***Dözməyib gəldiyin üçün bu evə,***
***Yenə lənətləyəcəksən özünü.***

***...Qapıda bir də yumub gözlərini***
***Kürəyin söykəyəcəksən sinəmə.***
***Sənə mən ömrümü bəxş eləyərdim***
***Bircə yol barı desəydin - eləmə!***

"Eləmə" deyə bilmədiklərimizin acı təəssüfü İlqar Fəhminin nəsr və poeziya dünyasının yaddaşından təpədən tüstü çıxan kimi çıxmaqdadı. "Eləmə" deyə bilənlərin mənəvi gücünü, durumunu anlamaq, dərk etmək üçün İlqarın yaradıcılığı maraq dünyamıza hakim kəsilir.

# DEYƏ BİLMƏDİKLƏRİMİZİN ŞƏKLİ

